Azad Azərbaycan



7 yanvar / 2021

# Dastana dönən ömür

**Şahnur Şahin oğlu Hüseynov həyatı dərk edən gündən ürəyini vətəninə bağlayır və ömrünün mənasını xalqına, el-obaya təmənnasız xidmətlə ölçür. Elə onun adını tarixə yazan da götürdüyü bu işıqlı yol, torpaq uğ-**



**runda canından-qanından keçməyi oldu. Fəqət ülvi arzularla, qəlbi minmin diləklə cəmiyyətdə yeri olan adamların cərgəsinə qoşulan yeniyetmə Şahnuru erməni dığaların Qarabağ torpaqlarına təcavüzü, Azərbaycana qarşı etdikləri ədalətsiz müharibə bir an belə rahat buraxmır. Vətən oğlunun sevdalandığı gözəl, nəcib əməllər olsa da, Qarabağ özü boyda dərd kimi ürəyinə yüklənir. Odur ki, nəyin bahasına olursa-olsun müqəddəs vətən torpağının hər qarışının azadlığı naminə silaha sarılıb döyüş meydanında erməni dığalarının məhv etməsi məqamını gözləyir...**

Ş.Hüseynov H.Əliyev adına Ali Hərbi Məktəbini bitirib vətənin müdafiəsinə qalxır. Beləcə Şahnurun hərbi həyatı başlanır. Sədaqətli, ürəyi millətinə məhəbbətli oğul olaraq ləyaqətlə doğma Azərbaycanın şərəfini qoruyur. Tabor komandiri, qərargah rəisi olur. Kapitan rütbəsinə qədər yüksəlir. Səmərəli işini nəzərə alıb batalyon tağım komandiri təyin edilir. Bacarıqlı hərbçi, gözəl insan, vətənpərvər bir şəxs kimi tanınır, əsgərlər, zabitlər ona ürəkdən inanırlar. Ağır günlərdə vətənə sipər, düşmənə çəpər olan igid komandir qarı düşmən hiyləsindən, bəd niyyətindən əsgərlərini məharətlə qoruyur. Ortaya qoyduğu nümunə ilə başqalarını da vətəni onun tək sevməyə və xidmət etməyə sövq edir.

Kapitan Şahnurun halal torpaq sevgisi Aprel döyüşlərində tam özünü göstərir. Müharibə meydanında mərdliklə vuruşaraq dığalara qan uddurur, əsl qəhrəmanlıq salnaməsi yaradır. Lələtəpədə bayrağımızın ucalmasında Şahnurun da əməyi çox olur. Məhz bütün bunlara görə onun göstərdiyi şücaət dillərdən düşmür.

**İkinci Vətən müharibəsində kapitan Şahnur gərgin döyüşlərə atılır. Ulu yurdun hər daşı, hər cığırı uğrunda sözün əsl mənasında can qoyur. Cəbhənin hansı istiqamətinə gedirsə, döyüş igidliyinə görə fərqlənir. Füzulinin azad olmasında düşməni ağır itki verməklə şəhidlik zirvəsinə ucalır. Bu şərəfli ölümlə əbədilik qazanır. Astaranın vətən sədaqətli oğlu tarixdə yaşamaqla tarixi yaşadan Azərbaycanın mərd igidlərdən olur. Bundan sonra şəhidimiz bütün zamanlarda, məkanlarda yurdunun döyünən ürəyi, həm də milli ruhun daşıyıcısı olaraq qalxdığı müqəddəslik zirvəsində bizim qürur yerimizə dönər...**

**Zəfər ORUCOĞLU**